## "Gedin deyin anama..."

Hamlet İsaxanlının "Ziyarət" şeirlər kitabı "Gedin deyin anama" başlıqlı şeirlə, şeir isə başlığa çıxarılmış bu sətirlə başlayır. Bu sətir, bilmirəm bilərəkdənmi, yoxsa hansısa təhtəlşüur bir istəyin təsirindənmi kitabı açır, amma bu sətiri, bu sözləri kitabın başqa bir yerində təsəvvür etmək çətindir. "Gedin deyin anama..." sözləri hər bəndin əvvəlində səslənir və hər dəfə də lirik qəhrəman üstüörtülü şəkildə çıxılmaz vəziyyətlərə düşdüyünü söyləyir. sifarişini edir - anasının ziyarətinə gedə bilməməsinin açıq demək istəmədiyi səbəblərini izah edir... oğul "yorulub qəm-kədərdən", səbəblər tutarlıdır, amma dərinə gedilməsə, son nəticədə bəhanə kimi görünə bilər.

Oğul ana ziyarətinə getməlidir, amma gedəmmir... Saça dən düşür, işlər, qayğılar çoxalır, vaxt daralır,.. adam hərdən həyatdan bezib ölmək belə istəyir, "amma hələ öləmmir". Şair bunu belə deyir:

"Gedin deyin anama

Uzaqda ki, balan var

Onu çox da qınama -

Uzaqdadır gələmmir.

Son vaxtlar keyfi yoxdur

Yorulub qəm kədərdən

Heç ürəkdən güləmmir;

Ölmək istəyir hərdən

Amma hələ öləmmir..."

Oğul ana ziyarətinə getməlidir... Əslində bu fikir bütün kitabın leytmotivinə çevrilir. Ana sözünün özü də bu kitabda simvollaşır, yalnız konkret bir kəsi dünyaya gətirən qadını deyil, həm də həmin adamın dünyaya gəldiyi ocağı, yurdu, eli-obanı bildirir, son nəticədə vətən məfhumu ilə eyniləşir. Və bu eyniləşmə kitabda olduqca üzvi səslənir.

Kitabın əvvəlindən axırına bir lirik qəhrəman obrazı keçir, bütün şeirləri vahid bir hiss - həsrət və kökünə, buradan da elinə, obasına, vətəninə məhəbbət hissi birləşdirir. Bu hiss həm kitaba daxil edilmiş şeirlərin, həm də "Ziyarət" poemasının əsas leytmotividir.

Kitabın lirik qəhrəmanı kəndinə, elinə-obasına, kiçik vətəninə qayıdır və bu qayıdış müəyyən mənada uşaqlıq və gənclik illərinə qayıdışa çevrilir, çünki gənc yaşlarında doğma yerlərdən getmiş qəhrəman dünyanı gəzib gəlmişdir. Həm onun özü, həm də onun kənddə qoyub getdikləri illərdən keçib bu günə gəlmişlər və bu illər hər kəsə öz möhürünü vurmuşdur. Bu isə doğma el-obaya qayıdışla həsrətin tam aradan qalxmasına ümid etməyin mənasızlığını göstərir.

Əslən hamı kənddəndir - dədəsi, babası şəhərdə doğulub böyüyənlər də, çünki bir vaxtlar, bəşəriyyət özünü dərk etməyə başlayanda şəhərlər olmayıb. Həyat kənddən başlanğıcını alıb. İlk şəhərləri də kəndlilər salıb. Və tədricən insanlar şəhərə üz tutub. Kimi oxumağa, kimi işləməyə, kimi yaşamağa...Şair "Bu da bir həyatdı" adlı kitabında bu mövzunu maraqlı şəkildə işləmişdi:

Şəhər yeni, kənd əzəldi,

Şəhərlilər kənddən gəldi...

Oxumağa gələn də çox

Ağlayan da, gülən də çox

Şəhər üçün ölən də çox...

Biri haya-küyə gəldi,

Biri məzə-meyə gəldi,

Bilməsə də nəyə gəlgi

Şəhər deyə-deyə gəldi,

Şəhəri görməyə gəldi,

Şəhərdə ölməyə gəldi.

Oxucularla bir görüşündə "bütün şairlər, demək olar ki, kənddə doğulur" deyə kəndin poetik ruhunu qabardan bir gəncə şairin anında verdiyi cavab maraqlıdır, bu cavabın bir anın deyil, oturmuş düşüncənin məhsulu olduğu hiss olunur: "Fikrin aydındır, lakin onu da əlavə et ki, bütün şairlər, demək olar ki, şəhərdə ölürlər".

İnsanı böyük-böyük şəhərlərə aparan yol ata evinin astanasından başlayır. İnsanın həyat adlı sonu görünməyən sonlu yolu ata evinin kandarından başlayır. Uşaq əvvəlcə həyəti, qonum-qonşunu tanıyır, sonra kəndini-kəsəyini, daha sonra geniş dünyaya üz tutur. Amma illər-zamanın addımları yaddaşına həkk olunduğundan, onun özümlüyünün, kimliyinin ən vacib hissəsini təşkil etdiyindən insanı öz kökündən ayrılmır, onu qismən özü ilə aparır və buna görədir ki, illər keçsə də həmin illərə, həmin yerlərə qayıtmağa ehtiyac duyur. Bəzən fiziki cəhətdən, bəzən isə xəyalən... Özünə qayıtmaq, kimliyini unutmamaq, səni böyük həyata yola salmış kiçik vətənə məhəbbəti özünlə daşımaq insanın insan olmasına dəlalət edən amillərdən bəlkə də ən vacibidir. Və təsadüfi deyil ki, yaradıcı şəxslər, yazarlar öz uşaqlığı və gənclik illəri keçən yerlərə və günlərə qayıtmaq istəyi ilə, dönüb-dönüb keçmiş xatirələrə dalır, ötən günləri həsrətlə canlandırırlar.

Bu yerlərə çox gəlmişəm

Gəldikcə də kövrəlmişəm

Nəşəm qəmlə görüşübdür

Sevincimə xal düşübdür.

Amma...Həmin yerə, məkana qayıtmaq olar, amma həmin illərə qayıtmaq mümkün deyil, gedəni qaytarmaq, öz saçlarına dən düşən vaxtı ananın qarasaç dövrünü bir daha görmək mümkün deyil. "Bir çaya iki dəfə girmək mümkünsüzdür", çünki bir an əvvəlki sular artıq axıb gedib, çayın gətirdiyi sular tamam başqa sulardır və elə suya girmək istəyənin özü də həmin illərdəki deyil, o da başqalaşmış, dəyişilmişdir. İnsanı yaşanmış keçmiş günlərə fiziki qaytara biləcək maşın hələ ki icad olunmayıb. Şair keçmişdən bu fiziki üzülməyi yaxşı anlasa da, onu heç cür qəbul etmək istəmir, zamanı yarıb ötən günlərin ziyarətinə can atır:

Çaylar axmazmış tərsinə

Mənsə uymaq istəmədim

Zamanın quru dərsinə.

İnsan keçmiş günlərə yalnız xəyalən qayıda bilir, o da fraqmentlər şəklində. İnsan yaddaşı seçim edərək, keçilən ömür yolunun yalnız bəzi səhifələrini özündə həkk edir və sonralar, müəyyən yaş həddində insanda nostalji hissləri baş qaldıranda yalnız həmin səhifələri canlandırmaq mümkün olur. Həmin illəri daha dolğun canlandıra bilmək üçün isə şair təxəyyülünə malik olmaq lazımdır. Hamlet İsaxanlı kimi. Şair təxəyyülünün köməyi ilə keçmişə boylanır, həmin günləri canlandırmağa çalışır və həmin yerlərə və illərə qayıdışını "Ziyarət" adlandırır. Lirik qəhrəman doğma kəndinə qayıdışına sevinir:

Doğulduğum, boy atdığım

Gecələrlə sevdalaşıb

Səhərləri oyatdığım

Doğma eldə, obadayam.

Duyğu hakim oldu bizə

Sevgi özü ibadətdir

Şükür, gəldik kəndimizə

Bu nə gözəl ziyarətdir!

Amma bu sevincdə bir kədər, bir nisgil var. Bəs bu nisgil nə ilə bağlıdır?

Birinci növbədə həmin illərə, yaddaşa çökmüş günlərə qayıdışın mümkünsüzlüyü ilə. Buna görə də doğma kəndə qayıdışın doğurduğu sevinc hissinə bişqa bir hiss də qarışır, şair təəssüf və bəlkə də təəccüblə deyir:

Bəs nədən qərib kimiyəm

Yenə yol çəkir gözlərim?

Niyə belə kədərliyəm,

Pərişandır nəğmələrim?

Nədən lirik qəhrəman özünü qərib kimi hiss edir, nədən onun gözləri yol çəkir? Səbəb birdir - doğma elin ziyarətinə gələn xatiratında yuva salanlarla gerçəklikdə olanlar arasındakı təzadı görür. O, görmək istədiyinin həsrətini çəkir və onu tapmır, ən ağırı isə tapdığının az qala tanınmaz dərəcədə dəyişməsidir. Şairin özünə söz verək:

Geri döndüm. Onu gördüm

Gördüm, köksümü ötürdüm

Mən uşaqkən. O,.. o zama

Gözəllikdə ad çıxaran

Bir gəlindi. Amma indi...

Kəndin "gözəlikdə ad çıxaran" gəlini indi qocalıb, günü keçmiş qarı olub. Lirik qəhrəmanın acı təəssüflə dediyi "amma indi..." yalnız vaxtı ilə "gözəllikdə ad çıxaran" gəlinə aid deyil, onun özünə də aiddir, çünki o illərdə gözələ uşaq gözləri baxmışdı və o gözəl bu qədər dəyişmişsə, həmin gözəlliyi aparmış illər lirik qəhrəmanın da saçlarına sığal çəkmiş, onu da tanınmaz dərəcədə dəyişmişdir.

Bunu şairin özü də dərk edir. Əvvəlcə

Doğulduğum, boy atdığım,

Arzularla qucaqlaşıb

Öz dünyamı yaratdığım

Doğma eldə-obadayam,-

deyən lirik qəhrəman nə baş verdiyini tezliklə və təəssüflə anlayaraq ritorik suala müraciət edir (və özünə xas bir üslubda oxucusunu düşündürə-düşündürə əsərə nöqtə qoyur :

De, keçmişdənmi gəlmişəm.

Ya mən özüm köhnəlmişəm?

Çox maraqlı və qəribə deyim. Hamı keçmişdən indiyə və indidən gələcəyə yol gedir, amma bu yol birtərəflidir, bu yolda əks istiqamətdə hərəkət yoxdur. Bu yolun başlanğıcında insan yolu tez getməyə tələsir, ortasında yolu heç fikirləşmədən gündəlik qayğılarla başını qatır, mənzil başına yaxınlaşanda isə hər vəcdlə yerişi ləngitməyə çalışır, amma əvvəli olanın axırı da var. Bu yol insanı köhnəltmir, qocaldır. Və qocalıq qapını döyəndə insan "yolun" başlanğıcına qayıtmağa, əlbəttə xəyalən, ehtiyac duyur, lakin yalnız yaradıcı şəxs bunu müəyyən qədər canlandıra bilir. Hamlet İsaxanlı kimi. "Ziyarət" poemasındakı kimi.

Lirik kənaraçıxmalarla insan-dünya-zaman probleminə nəzər salan şair bəşər övladının "qaydasız oyunları" ilə barışa bilmir, "məxluqat nə etməlidir?" sualını cavablandırmadan "min şükür ki, hər yaranan bir gün ölüb getməlidir" deyə insan qüdrətinin məhdudluğunu insanın allahlıq etmək iddiasına qarşı çıxan xeyir qüvvə kimi qəbul edir:

Nə yaxşı ki, kainata

Tor qurub kəmənd atmadıq

Nə yaxşı ki, yeri, göyü

Biz qurub biz yaratmadıq.

Poema həcmcə böyük olmasa da, bir nəslin, elin həyat tarixçəsini əks etdirir. Burada bütöv bir elin ağrılı-acılı həyat yolu - sürgünlükdən, geriyə dönüşdən keçən yolu öz əksini tapır.

Doğma yurda dönən lirik qəhrəman el ağsaqqalları ilə görüşür, böyüklərini yada salır, oxucunun gözləri önündə babasının, nənəsinin poetik obrazlarını canlandırır. Bununla da onların ziyarətinə gəlir. Bu ziyarət xəyali ziyarətdir, yaddaşda yaşatmaq, böyüklərinin bir hissəsini özündə daşıyaraq gələcək nəsillərə

çatdırmaqla edilən ziyarətdir. Və təsadüfi deyil ki, kitaba müəllifin əcdadı Qaçaq İsaxanın portreti ilə yanaşı, şairin yaxın qohumlarının, hətta nəvələrinin şəkilləri də salınmışdır. Bu isə ulu babadan nəvəyə həyat estafetinin ötürülməsi təəssüratı bağışlayır.

Ziyarət niyyətlə gəlib baş çəkməkdirsə, şairin ziyarəti baş tutmuşdur. Ziyarət unutmamaq, daim özündə yaşatmaqdırsa, şairin ziyarəti baş tutmuşdur. Bu yerdə deməli bircə söz qalır: "Ziyarətiniz qəbul olsun, şair!"

Tamilla Əliyeva

http://www.adalet-az.com/new/2009/12/26/anons=1